Azərbaycan Respublikası

Siyəzən Rayon İcra Hakimiyyəti başçısının

# S Ə R Ə N C A M I

№ 25 «12» mart 2015-ci il

**"1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı"nın Siyəzən rayonunda həyata keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 23 fevral 2015-ci il tarixli 1060 nömrəli Sərəncamını rəhbər tutaraq **qərara alıram:**

1. "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı"nın Siyəzən rayonunda həyata keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin (*əlavə olunur*).
2. Tədbirlər Planında nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi üçün icraçı orqanlar həmin tədbirlərin həyata keçirilməsini təmin etsinlər.
3. Sərəncamın icrasına nəzarət Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təhminə Bəxtiyarovaya tapşırılsın.

**Arif Qasımov**

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının**
**2015-ci il 12 mart tarixli 25 nömrəli**
**sərəncamı ilə təsdiq edilmişdir**

**“1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı”nın Siyəzən rayonunda həyata keçirilməsi ilə əlaqədar**

## TƏDBİRLƏR PLANI

| Sıra №si | Tədbirin adı | İcraçılar | İcra müddəti |
|---|---|---|---|
| 1. | Rayonun şəhər, qəsəbə və kəndlərində, idarə, müəssisə və təşkilatlarında 1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin təntənəli qeyd edilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>Aidiyyəti idarə, müəssisə və təşkilatlar,<br>Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Siyəzən rayon təşkilatı | aprel-may 2015-ci il |
| 2. | Xatirə kompleksinin ziyarət edilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Siyəzən rayon təşkilatı | may 2015-ci il |
| 3. | 1941-1945-ci illər müharibəsində qələbənin 70 illiyinə həsr edilmiş sənədlərin, plakatların, fotomaterialların, əsərlərin, əşyaların sərgisinin təşkil edilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Siyəzən rayon bölməsi,<br>Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Siyəzən rayon təşkilatı | aprel-may 2015-ci il |
| 4. | 1941-1945-ci illər müharibəsi veteranları və gənclər cəlb edilməklə, 1941-1945-ci illər müharibəsinin mühüm hadisələrinə həsr olunmuş görüşlərin keçirilməsi, gənclərin xatirə kompleksinə ziyarətlərinin təşkili | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Siyəzən rayon bölməsi,<br>Təhsil Şöbəsi,<br>Gənclər və İdman İdarəsi,<br>Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Siyəzən rayon təşkilatı | 2015-ci il |
| 5. | 1941-1945-ci illər müharibəsi ilə əlaqədar olan xatirə yerlərinin (təxliyə hospitallarının, qəbiristanlıqların, memorialların, abidələrin) pasportlaşdırılması və onun elektron variantının yaradılması işinin başa çatdırılması | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı,<br>Mədəniyyət və Turizm Şöbəsi,<br>Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Siyəzən rayon təşkilatı | 2015-ci il |
| 6. | Hərbi qəbiristanlıqların, memorial və xatirə komplekslərinin abadlığının təmin edilməsi, 9 may günü ərəfəsində onlara baxış keçirilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı | mütəmadi |

| | | | |
|---|---|---|---|
| 7. | 1941-1945-ci illər müharibəsinin 90 yaşına çatmış veteranlarının yubileylərinin təşkil edilməsi | Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Siyəzən rayon təşkilatı | mütəmadi |